## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən Açıq Hökumət sahəsində bir sıra tədbirlər həyata keçirilir:

- Səhiyyə Nazirliyinin fəaliyyəti barədə məlumatların mütəmadi, yenilənmiş əsaslarla rəsmi internet səhifəsində (www.health.gov.az) yerləşdirilməsi
- Səhiyyə sahəsinə aid qanunvericilik aktlarının sadə dildə yazılmış versiyasının, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi
- Səhiyyə sahəsinə aid qanun layihələri hazırlanarkən bu prosesə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi
- Səhiyyə Nazirliyinin rəsmi internet saytında vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, müzakirələrin təşkil edilməsi, interaktiv sual-cavabların aparılması üçün yaradılmış elektron bölmədən səmərəli istifadə edilməsi
- Səhiyyə Nazirliyinin rəsmilərinin iştirakı ilə nazirliyin öz fəaliyyəti barədə məlumat konfranslarının keçirilməsi, müxtəlif mövzularla bağlı tok-şoularda və dəyirmi masalarda iştirakının təmin edilməsi

Buklet Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə Səhiyyə Nazirliyinin 2014-cü il üçün illik İş Planının 14-cü bəndinə uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

# AÇIQ HÖKUMƏT NƏDİR?

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilmişdir.

**“Açıq Hökumət”** effektiv demokratiyanın bir hissəsidir. Bu termin bütün dövlət idarəetmə orqanlarını və hakimiyyətin ayrı-ayrı şaxələrini özündə birləşdirərək vətəndaşların informasiya və hesabatlara əlçatanlığını artırır.

Açıq Hökumət üç pillə üzərində qurulur: şəffaflıq, iştirakçılıq və hesabatlılıq.

**ŞƏFFAFLIQ** – dövlət qurumlarının fəaliyyətinə dair məlumatların (bəzi istisnalarla) vaxtında hazırlanması və münasib formada geniş ictimaiyyətin əldə etməsi üçün açıq olmasıdır. Dövlət qurumları tərəfindən vətəndaşların və fiziki şəxslərin sorğularına vaxtında cavab verilməsi, habelə proaktiv olaraq məlumatların geniş əhali üçün dərc edilməsi şəffaflığın təmin edilməsinin əsas mexanizmləridir. Elektron Hökumətin yaradılması və əhali üçün elektron xidmətlərin və açıq pəncərə mexanizminin tətbiqi şəffaflığın təmin edilməsi üçün mühüm amillərdir.

**İŞTİRAKÇILIQ** – vətəndaşların və geniş ictimaiyyətin qərarların qəbulu prosesinə fəal cəlb edilməsi, cəmiyyətin maraqlarına cavab verən və demokratiyanın inkişafına xidmət edən müxtəlif qanunların, dövlət proqramları və siyasətlərin formalaşdırılmasına töhfə vermək məqsədilə ideyalar və təkliflər verilməsidir. Dövlət qurumları vətəndaşların ictimai müzakirələrdə iştirakına şərait yaratmalıdır.

**HESABATLILIQ** – dövlət qurumlarının qəbul edilən qərarların icrası və maliyyə vəsaitlərinin xərclənməsinə dair məsuliyyəti dərk etməsi və korrupsiyaya qarşı mübarizə aparmasıdır.

Azərbaycan Respublikası düzgün idarəçiliyin təşviqi üzrə bütün beynəlxalq təşəbbüslərə qoşulmuşdur ki, bunlardan biri də şəffaflığın artırılması və açıq Hökumətin təşviqi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübənin mübadiləsi və beynəlxalq səylərə öz töhfəsini verə bilmək məqsədilə ölkəmizin 2011-ci ildə Açıq Hökumət Tərəfdaşlığına daxil olmasıdır.

**Açıq Hökumət Tərəfdaşlığı** – hökumətlərin vətəndaşlar qarşısında şəffaflığın təşviqi, vətəndaşlara daha böyük səlahiyyətlərin verilməsi, korrupsiya ilə mübarizə və idarəetmənin gücləndirilməsi üçün yeni texnologiyaların tətbiqi istiqamətində öhdəliklər götürdüyü könüllü beynəlxalq təşəbbüsdür.



## Açıq Hökumətin təşviqi sahəsində aşağıdakı tədbirlərin görülməsi zəruridir:

1. İnformasiya əldə edilməsinin asanlaşdırılması
2. Dövlət orqanlarının öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsi
3. Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi
4. Elektron xidmətlərin təkmilləşdirilməsi
5. Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması
6. Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması
7. Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması

## Açıq Hökumətin qurulması nəyə xidmət edir:

### Hökumət üçün

- Müasir texnologiyaların geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artması
- Büdcə vəsaitlərinə qənaət edilməsi, dövlət xidmətlərinin göstərilməsi müddəti və xərclərinin azalması
- Dövlət orqanlarının vahid informasiya fəzasının formalaşması və təhlükəsizliyinin təmin olunması
- Effektiv, şəffaf, nəzarət oluna bilən dövlət idarəetməsinin və yerli özünüidarəetmənin bərqərar olması

### Vətəndaşlar üçün

- Vətəndaşların dövlət idarəçiliyində fəal iştirak etməsi
- Vətəndaşların dövlət orqanları ilə təmaslarının sadələşdirilməsi, daha münasib və çevik formada həyata keçirilməsi
- İnformasiya tələbatının dolğun ödənilməsində rahatlıq
- Məhdud imkanlı insanların dövlət xidmətlərinə çıxış imkanı əldə etməsi

### Biznes sektoru üçün

- Dövlət orqanları ilə səmərəli və operativ şəkildə əlaqə qurulması, xərclərin azaldılması
- İqtisadi aktivliyin, rəqabət qabiliyyətinin və xarici bazarlara çıxış imkanlarının artması